# İndi qisas zamanı, qələbə zamanıdır, xoş gələcək müjdəli bu çağına qurban, Eeey!



Zəka VİLAYƏTOĞLU

## Eeey!

Şəhid qanı çilənən torpağına qurban, Eeey!
Əsirlikdə saralan yarpağına qurban, Eeey!

Düşmən ayağı altda illərlə çox inlədin,
Göz yaşlarıtək axan irmağına qurban, Eeey!

Yaraların, bilirəm, gecə-gündüz göynəyir,
Övlad həsrətli ana qucağına qurban, Eeey!

Qubar dolu gözlərdə, ürəklərdə alışan,
Alovu ərşə çıxan ocağına qurban, Eeey!

"Vətən" deyib hayqıran,
düşmənə qan udduran
əsgərinin əlinə, bacağına qurban, Eeey!

İndi qisas zamanı, qələbə zamanıdır,
xoş gələcək müjdəli bu çağına qurban, Eeey!

Hər zəfərdə fərəhlə zirvələrə sancılan,
Qürurla dalğalanan bayrağına qurban, Eeey!

## Bəla

Gəldi başımıza, gəldi bir bəla,
Bilmədik yerdənmi, göydənmi gəldi!
Hansısa şəhərdən, ya xarabadan,
Hansısa uğursuz köydənmi gəldi?!

Açdıq qəlbimizi bir otaq kimi,
ən isti yer verdik ürəyimizdə,
qaldıq evimizdə bir qonaq kimi,
bu bəla xəncəri kürəyimizdə!

Nə qədər əzablı illərə dözdük,
Yelləndik ümidlər kəndirində biz!
Zəhərdən də acı dillərə dözdük,
Yandıq qəm-kədərin təndirində biz!

Bitdi bağrımızda qara tikantək,
hayana tərpəndik qanımız axdı!
Səbrimizin ömrü olmadı gödək,
Gözlədik inamla, zamanı, vaxtı!

Axır ki, yetişib o zaman, o vaxt,
Qayalar əriyir, daşlar əriyir,
Yıxılır şər dolu bir xaniman, taxt,
Neçə-neçə quduz başlar əriyir!

Gördük türk qanına hərisliyini,
Erməni üzündə yoxdu su, Tanrım!
Aç qoca Qafqazın nəfəsliyini,
Çəkilsin üfunət qoxusu, Tanrım!

## Ağlayırdı

Yuxumda Laçına getmişdim, ana,
Dumana bürünüb yaz ağlayırdı!
Yetim uşaq kimi büküb boynunu,
dinir pərdə-pərdə, saz ağlayırdı!

Usanıb özünü ümid asmışdı,
bütün dağ-dərəni hüzn basmışdı,
dağ çayı səsini elə qısmışdı,
yaman yorulmuşdu, az ağlayırdı!

Gördüm abad yurdlar viranə qalıb,
Yam-yaşıl çəmənlər vaxtsız saralıb,
Bir qızın örpəyi sürüşüb qalıb,
Bir daşa sığınıb, naz ağlayırdı!

* * *

*Şəhid generalımız Polad Həşimov
və bütün şəhidlərimizin
ruhuna ehtiramla!*

Çox uzandı bu gecə,
çox çətin sabah oldu!
Axdı günahsız qanlar,
nə qədər günah oldu!

Soldu vətənin gülü,
Yandı daşı, torpağı!
Düşməndir sağı, solu,
Qana susamış, yağı!

Vətən çağırdı səni,
Harayına yetişdin!
Yardın dumanı, çəni,
Odlarda yandın, bişdin!

İnsan kimi doğuldun,
Bərkidin polad kimi,
Sən mərdliklə yoğruldun,
Ad aldın Polad kimi!

Ucaldı şəhid adın,
Vətənin göylərinə!
Sönməz alovun, odun,
Keçsə də min qərinə!

Çox dözdük zülümlərə,
Ömrümüz eyvah oldu!
Ölümün ölümlərə
əbədi bir şah oldu!

## Aman, dağlar

Sənsiz qəribsəyib könlüm,
aman dağlar, aman dağlar!
Gül qoxulu yağış göndər,
Bir də seyrək duman, dağlar!

Həsrətin ruhumu sarır,
qəlbimdə tufan qoparır,
ömrümü yuyub aparır,
zaman, dağlar, zaman, dağlar!

Təşnəyəm buz bulaqlara,
Gəzdiyim göy yaylaqlara,
əsir düşdüm uzaqlara,
qəlbim olub kaman, dağlar!

Bu gün, sabah yaş əllidir,
Xoş əməllər təsəllidir,
Yaşadıqlarım bəllidir,
Yaxşı, dağlar, yaman, dağlar!

Ömür sənsiz qışa dönüb
Qəfəsdəki quşa dönüb
ürəyimdə yaşa dönüb
gözlərimdən daman dağlar,
aman dağlar, aman dağlar!

## Ağladım

Nə zamandır görməmişdim,
dağları gördüm, ağladım!
Hər daşına, qayasına,
üzümü sürtdüm, ağladım!

Daşyarpızı qoxusuna,
quşların şən oxusuna,
heyranam xoş qoxusuna,
gülünü dərdim, ağladım!

Bu daş vətən, bu dağ vətən,
bu çağlayan bulaq vətən,
yaxın vətən, uzaq vətən,
sevincim, dərdim, ağladım!

Bir əzəmətdi, qüdrətdi,
mənə ucalıq öyrətdi,
qiymətli vardı, sərvətdi,
Könlümü verdim, ağladım!